www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933-cü ildən çıxır

№-19 (1802) 15 noyabr 2024-cü il




## Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib

### Prezident İlham Əliyev: COP29-un sədri kimi, biz yaşıl keçidin güclü carçısı olacağıq

səh. 2

## Rezidentlərin yekun attestasiyası imtahanlarının II mərhələsi baş tutub

səh. 5

## Əlcəzairli professor ATU-da akademik fəaliyyət göstərib

səh. 7

## Tələbələrimiz iqlim dəyişmələri ilə bağlı layihə hazırlayıb

səh.6



## Azərbaycan Tibb Universitetində Zəfər Günü qeyd olunub

Rektor, professor Gəray Gəraybəyli: Tarixi zəfərimizin əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur

səh. 3

## Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinə həsr olunmuş seminar keçirilib

*Yüksək potensiallı gənclərin elmi araşdırmalara cəlb edilməsində TEC mühüm platformadır*

səh. 4

## Eşitmənin bərpasında koxlear implantın rolu

*Dosent Cabbar Cəlilov deyir ki, uşaqlarda bu əməliyyat vaxtında icra olunduqda, nitqin inkişafı normal səviyyədə gedir*

səh. 7



## Yeni istiqamətlərə cavabdeh şöbə

Dosent Aygün Babayeva: Tədris prosesinin təkmilləşdirilməsi, beynəlxalq akkreditasiya və reytinqlərdə yer qazanmaq əsas fəaliyyət sahəmizdir

səh.4

# Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib

## Prezident İlham Əliyev: COP29-un sədri kimi, biz yaşıl keçidin güclü carçısı olacağıq



**Noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş Sammitdə iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladılar.

Qarşılanma mərasimindən sonra birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyev Liderlər Sammitinin açılış mərasimində çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli BMT-nin Baş katibi.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan




enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.

Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, – mən beynəlxalq medianı nəzərdə tuturam, – mənim



yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

Sağ olun.

Sonra BMT-nin Baş katibi Antonio Quterreş və Malayziyanın paytaxtı Kuala Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru xanım Maimuna Mohd Şərif çıxış etdilər.

Sammitdə NASA astronavtlarının beynəlxalq kosmik stansiyadan xüsusi videomüraciəti nümayiş olundu.

Daha sonra mədəni proqram təqdim edildi.

# Azərbaycan Tibb Universitetində Zəfər Günü ilə əlaqədar tədbir keçirilib

## Rektor, professor Gəray Gəraybəyli: Tarixi zəfərimizin əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur

**Azərbaycan Tibb Universitetinin məzun və tələbələri Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə həmişə öndə olublar. 20 Yanvar hadisələri, I-II Qarabağ müharibələri, Aprel döyüşləri və antiterror əməliyyatları zamanı universitetimizin 32 məzun və tələbəsi şəhidlik zirvəsinə ucalıb. Onlar canları və qanları ilə tarix yazan qəhrəmanlarımızın sırasındadırlar.**



İstər döyüşlər zamanı, istərsə də arxa cəbhədə məhz ağxalatlı həkimlərimizin fədakarlığı sayəsində xeyli sayda yaralılar həyata qayıdıb. Onlar bir əlində həkim çantası, o biri əlində isə silah düşmənlərlə döyüşüb, müqəddəs həkimlik peşəsini layiqincə yerinə yetirib, xalqımıza Zəfər Gününün sevincini yaşadıblar.

Azərbaycan Tibb Universitetində 8 Noyabr - Zəfər Gününün 4-cü ildönümü təntənəli şəkildə qeyd olunub. Əvvəlcə universitetin rəhbərliyi ATU-nun həyətində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edib. Daha sonra II Müalicə-profilaktika fakültəsinin 4-cü kurs tələbəsi Nigar Babayevanın aparıcılığı ilə tədbir keçirilib. O, çoxəsrlik tariximizin millətimizin şanlı döyüş yolu ilə zəngin olduğunu, qazi və şəhidlərimizin qəhrəmanlığı sayəsində torpaqlarımızın erməni işğalından azad edildiyini bildirib.

Şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himnimiz səsləndirilib.

Universitetin rektoru, professor Gəray Gəraybəyli tədbir iştirakçılarını şanlı Zəfər Günü münasibəti ilə ürəkdən təbrik edib, xalqımızın tarixində bu günün ən əziz və ən müqəddəs bayramlardan biri olduğunu vurğulayıb: “Çünki bu bayram qazi və şəhidlərimzin qanı və canı bahasına əldə olunub. Üzümü tələbələrimizə tutub deyirəm ki, sizlər anadan olanda torpaqlarımız ermənilərin işğalı altında idi. 27 ildən çox idi ki, biz o torpaqları itirmişdik. 4 il öncə Qarabağda hərbi əməliyyatlar cəmi 44 gün çəkdi. Noyabrın 8-i Qarabağın ürəyi Şuşa özünün azadlığına qovuşdu. Bizim nəslə torpaqlarımızı itirmək ağrısını yaşamaqla yanaşı, həm də azad olunması sevincini yaşamaq nəsib oldu. Şükürlər olsun ki, siz gənclər ərazi bütövlüyü təmin olunmuş Azərbaycanın vətəndaşlarısınız”.

Rektor bu tarixi zəfərin vacib məqamlarına da toxunub. Bildirib ki, son 200 ildə ilk dəfə idi ki, torpaqlarımız işğaldan azad olunurdu: “Burada mən türk dünyasının böyük oğlu, Nobel mükafatı laureatı Əziz Sancarın bir sözünü xatırlatmaq istərdim. O deyirdi ki, Qarabağ zəfəri son 200 ildə bütün türk dünyasının ən böyük zəfəridir.

4 il öncəyədək dünyada Azərbaycanın sanki öz torpaqlarını itirməsi ilə barışacağı fikri formalaşmışdı. Bir çox dövlətlər və beynəlxalq təşkilatlar belə düşünürdü. 44 günlük müharibə isə bütün dünyaya Azərbaycanın əsl mövqeyini, qətiyyətini göstərdi.

Bir məsələni xüsusi vurğulamaq istərdim ki, tarixi zəfərimizin əsası hələ Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə qoyulub. Ümummilli Lider beynəlxalq tədbirlərdə Azərbaycan xalqının torpaqlarının itirilməsi ilə razılaşmayacağını dönə-dönə deyirdi. Məhz həmin siyasətin nəticəsi olaraq, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qələbəmizin rəmzi olan “Dəmir yumruq” öz işini gördü və zəfərimiz reallaşdı. Bu münasibətlə hər birinizi təbrik edirəm”.

Sonra müharibə zamanı hərbçilərlə çiyin-çiyinə xidmət aparan hərbi tibb işçilərinin fədakarlığını əks etdirən videoçarx nümayiş olunub.

Hərbi Tibb Fakültəsi Tibbi profilaktika kafedrasının rəisi, tibb xidməti polkovniki Şahin Süleymanov çıxışında bildirib ki, Azərbaycan Silahlı Qüvvələri II Qarabağ müharibəsi zamanı 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın kəndi işğaldan azad edib: “Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət göstərdi. Düşmənin 30 il ərzində düzəltdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi. Bu tarixi qələbədə Hərbi tibb fakültəsinin zabit-müəllim heyəti, rezident və kursantlarının mühüm rolu var. HTF-nin məzunlarından 14 həkim və feldşer bu müharibədə şəhid oldu. Onların keçdiyi şərəfli yol gələcək tələbə və kursantlara bir qəhrəmanlıq nümunəsidir”.

Fakültədə şəhidlərin xatirəsinin hər zaman əziz tutulduğunu qeyd edən Ş.Süleymanov söyləyib ki, onları hər bir Azərbaycan vətəndaşı tanımalıdır: “ATU-nun həyətində şəhid hərbi həkim və feldşerlərin xatirəsinə abidə kompleksinin ucaldılması, fakültəmizdə onların xatirəsinə stendlərin hazırlanması, kitabxanaya, mühazirə və konfrans zallarına adlarının verilməsi bu hörmət və ehtiramın bir nümunəsidir”.



Daha sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində “Teatr klubu”nun üzvü olan tələbələr tərəfindən müharibə günlərindən bəhs edən səhnəcik nümayiş olunub. Tələbələrin ifasında ön cəbhədə hərbi həkimlərin qəhrəmanlığını, evlərində isə ailə üzvlərinin nigarançılığını, qələbəyə inamını əks etdirən səhnəcik tədbir iştirakçılarını qürur hissiylə duyğulandırıb.

Qeyd edək ki, tədbir başa çatdıqdan sonra universitetin rəhbərliyi Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri olan əməkdaşlarla görüşüb.

Rektor, professor Gəray Gəraybəyli Zəfər Günü ərəfəsində hər kəsin ikili hisslər keçirdiyini, həm sonsuz qürur yaşadığını, həm də şəhidlərimizə görə kədərləndiyini bildirib. O, 30 ildir həsrətində olduğumuz torpaqların məhz bu gənclərin şücaəti, yenilməzliyi sayəsində azadlığına qovuşduğunu qeyd edərək, Prezident İlham Əliyevin illərdir apardığı müdrik siyasət nəticəsində vətənpərvər nəslin yetişdiyini vurğulayıb. Hər kəsi Zəfər Günü münasibətilə təbrik edən rektor, xalqımıza yalnız xoş günlər nəsib olmasını arzulayıb.

Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov universitetimizin şəhid ailəsi üzvü olan əməkdaşlarının daim rəhbərliyin diqqət mərkəzində olduğunu, onların sosial problemlərini həllinə yardım göstərildiyini diqqətə çatdırıb.

Görüşdə iştirak edən hər iki Qarabağ müharibəsi şəhidlərinin ailə üzvləri göstərilən diqqətə görə rektor başda olmaqla, universitet rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Tədris Cərrahiyyə Klinikasında Zəfər Günü qeyd edilib

**Universitetimizin Tədris Cərrahiyyə Klinikasında Zəfər Gününə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.**



Tədbirdə açılış nitqi ilə çıxış edən klinikanın direktoru, dosent Əsədulla Sultanov Qarabağ Zəfərinin Azərbaycan xalqı və dövlətinin qüdrətinin rəmzinə çevrildiyini bildirib. Bu möhtəşəm Zəfərin tarixi əhəmiyyəti haqqında danışan natiq 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan xalqının bir yumruq kimi birləşdiyini, ordumuza mənəvi dayaq olduğunu xatırladıb və bu qələbənin əsasında xalq-ordu birliyinin Prezidentə sonsuz inamının dayandığını qeyd edib: “8 Noyabr Zəfəri müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, o cümlədən Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin təntənəsi oldu. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi isə xalqımızı qalib xalqa çevirdi, hər birimizi uzun illər davam edən məğlubiyyət acısından qurtardı”.

Ə.Sultanov Vətən müharibəsində həkimlərin əvəzolunmaz xidmət göstərməsindən söz açıb, həmin dövrdə Tədris Cərrahiyyə Klinikası əməkdaşlarının, bütün tibbi personalın nümayiş etdirdiyi fədakarlığı xüsusilə vurğulayıb.

Daha sonra ATU-nun Elmi işlər üzrə prorektoru, Şüa diaqnostikası kafedrasının müdiri, professor Məlahət Sultanova, Ümumi cərrahiyyə kafedrasının müdiri, professor Elçin Ağayev, Ağız və üz-çənə kafedrasının müdiri, professor Çingiz Rəhimov, həmin kafedranın assistenti Oqtay Mehdiyev və Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov çıxış edərək, Azərbaycanın suverenliyi uğrunda canlarını fəda edən qəhrəman Vətən övladlarının əziz xatirəsinin daim ehtiramla yad olunduğunu, qazilərimizlə bağlı məsələlərin hər zaman xüsusi diqqətdə saxlanıldığını bildiriblər.

Sonda Klinikanın bir sıra əməkdaşlarına Vətən müharibəsi dövründə göstərdikləri peşəkar fəaliyyətə, keyfiyyətli tibbi xidmətə görə təşəkkürnamə verilib.



# Növbəti seminar İİV və vərəm xəstəliyinə həsr olunub

**Bu yaxınlarda universitetimizdə “Sağlamlığa xidmət” İctimai Birliyinin təşkilatçılığı ilə seminar keçirilib. Seminarı Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli açaraq, mövzunun “İİV/Vərəm ko-infeksiyası: İİV-ə yoluxmuş şəxslərdə vərəmin kliniki xüsusiyyətləri” olduğunu deyib.**

O, ATU-nun cəmiyyət üçün maraqlı, faydalı, xüsusilə də səhiyyə icması üçün aktual olan problemlərlə əlaqədar tədbirlərə ev sahibliyi etdiyini bildirərək, tələbələrə üz tutub: “Gənc nəslin müəyyən məsələlərlə bağlı maariflənməsi çox vacibdir. Xüsusilə də nəzərə alsaq ki, əhalinin sağlamlığı bilavasitə sizin əlinizdə olacaq. Yaxın gələcəkdə sizlər səhiyyə siyasətini formalaşdıracaq, səhiyyə sisteminin bazisi olacaq gənclərsiniz. Bu gün İİV xəstəliyi ilə bağlı maarifləndirici tədbir təşkil edilib. İnanıram ki, hər biriniz bundan lazımi fayda götürəcəksiniz”.

F.Mədətli sonra sözü Milli Məclisin deputatı Pərvanə Vəliyevaya verib. Millət vəkili “Sağlamlığa xidmət” İctimai Birliyində fəaliyyətə başladığını, burada əsas işinin vərəmlə bağlı layihələrin icrasına yönəldiyini bildirib: “Eyni zamanda, COP29 Təşkilat Komitəsində təmsil olunuram. Burada da səhiyyə sahəsi aktual mövzulardan biridir. Noyabrın 18-də Səhiyyə Günü elan ediləcək. “Yaşıl zona” hər kəsə açıqdır. Hər birinizi tədbirlərdə aktiv iştiraka dəvət edirəm”.

Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov bu cür lazımlı tədbirə görə millət vəkilinə təşəkkürünü bildirib. O, seminarın əhəmiyyətinə toxunaraq, İİV-vərəm mövzusunun aktual mövzulardan biri olduğunu qeyd edib. Bildirib ki, vərəm həkimlərin çox ehtiyatla yanaşdığı təhlükəli xəstəliklərdəndir: “Ona görə də hər birinizin bu barədə maariflənməsi və ətraflı məlumat alması olduqca vacibdir”.

Prorektor bu cür tədbirlərin davamlı keçiriləcəyini diqqətə çatdırıb.

TƏBİB-in İlkin səhiyyə xidməti departamentinin əməkdaşı Aygün Xəlilova və Respublika QİÇS-lə Mübarizə Mərkəzinin direktor müavini Günəş Cəfərova öz çıxışlarında İİV xəstəliyindən, ona yoluxma yollarından, dünya və ölkəmizdə bu sahədə olan vəziyyətdən bəhs ediblər. Qeyd olunub ki, vərəm xəstəliyinin müalicəsi var və 6 ay ərzində tam sağalmaq mümkündür. Amma İİV infeksiyasının müalicəsi ömürlükdür. Hazırda ölkəmizdə İİV virusu ilə yaşayanların sayı 10108 nəfərdir. Onların 69.5 faizini kişilər, 30.5 faizini isə qadınlar təşkil edir. İndiyədək ölənlərin sayı 1516 nəfərdir.

# Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinə həsr olunmuş seminar keçirilib

## Yüksək potensiallı gənclərin elmi araşdırmalara cəlb edilməsində TEC mühüm platformadır

**Oktyabrın 31-də Azərbaycan Tibb Universiteti Tələbə Elmi Cəmiyyətinin bu günü və inkişaf perspektivləri mövzusunda seminar keçirilib. Tədbiri giriş nitqi ilə açan TEC-in elmi rəhbəri, tibb elmləri doktoru Muşviq Həsənov əvvəlcə seminarda iştirak edən ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultanovanı bu vəzifəyə təyin olunması münasibətilə təbrik edib və işlərində uğurlar arzulayıb.**

Sözünə davam edən M.Həsənov vurğulayıb ki, TEC-in əsas vəzifələrindən biri xüsusi bacarıq və elmi istedada malik olan tələbələri tədqiqat işlərinə cəlb edərək üzə çıxarmaqdır: "Yaxşı mütəxəssis olmaq üçün araşdırma aparmaq, proqnozlaşdırmaq və statistik təhlil etmək bacarıqlarına da yiyələnmək lazımdır. TEC-in fəaliyyət proqramına daxil olan məsələlər sırasında bir sıra universitetlərin tibb mütəxəssisləri ilə təcrübələrin bölüşülməsi və onlar arasında koordinasiyanın qurulması da yer alır. Bu da tibbin aktual sahələrinə dair elmi araşdırmaların aparılması və müasir tibb təhsilinə inteqrasiya baxımından böyük əhəmiyyətə malikdir. Bu istiqamətdə işlər aparılır və hələlik Naxçıvan Universiteti ilə müştərək elmi konfrans keçirilib. Belə tədbirlərin mütəmadi təşkil olunması tələbələrin gələcək elmi fəaliyyətinin stimullaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir. Elmi rəhbərlərə tövsiyə edərdim ki, tələbələrə aparacaqları elmi tədqiqatların istiqamətləri təkrar olunmamaq şərti ilə aktual mövzular versinlər".

TEC-in uğurlarından da danışan M.Həsənov nəzərə çatdırıb ki, həm ölkə daxilində, həm də xaricdə tələbələrimiz beynəlxalq konfranslarda daim iştirak edir və bir sıra nailiyyətlər qazanıblar. Məsələn, bu yaxınlarda keçirilən Avrasiya Pediatrlarının Beynəlxalq Konqresində tələbələrdən Həmid Səfərli və Səbinə Həsənzadə ən yüksək pillədə yer alıblar.

Toplantıda iştirak edən Elm departamentinin Startap və elmi tədbirlərin koordinasiyası şöbəsinin koordinatoru, təşkilat komitəsinin sədr müavini, dosent Ayət Cəfərova Azərbaycan Tibb Universitetinin tələbələri üçün "Startaplara ATU ilə başla" layihəsi çərçivəsində təlimlərin keçirildiyini bildirib. 89 tələbənin qeydiyyatdan keçdiyini, 62 tələbənin isə sertifikat aldığını söyləyən A.Cəfərova növbəti dövr üçün startap təlimlərinin planlaşdırılması barədə də məlumat verib.

Bundan sonra TEC-in sədri Həmid Səfərli hesabat məruzəsi ilə çıxış edib. Qurumun hazırkı fəaliyyəti və gələcək planları haqda məlumat verən H.Səfərli qeyd edib ki, qarşıda duran əsas vəzifələrdən biri tələbələrin aşağı kurslardan başlayaraq akademik fəaliyyətə cəlb edilməsidir. Onun sözlərinə görə, 2024- 25-ci tədris ilində "Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı"nın Azərbaycan Tibb Universitetində keçirilməsi üçün hazırlıqlara başlanılıb.



TEC-in beynəlxalq əlaqələr üzrə sədr müavini Səbinə Həsənzadə elmi məqalələrin beynəlxalq konfranslara və jurnallara göndərilməsi prosesi haqda çıxış edib və elmi tədqiqat yolunda ilk addımlarını atan gənclərlə təcrübəsini bölüşüb.

İclasda "İlin ən yaxşı elmi-tədqiqat işi, startap layihəsi" adlı ənənəvi konfransın və monotematik seminarların keçirilməsinin planlaşdırılması, eləcə də TEC-in əsasnaməsinə uyğun olaraq üzvlük formasının hazırlanması müzakirə olunub. Bundan başqa, TEC-in loqosu, gerbi və startaplarla bağlı roll-upların ilkin nümunələri nümayiş etdirilib. Eləcə də TEC-in jurnalının hazırlanması üçün ilkin təşəbbüslər irəli sürülüb, 2024-25-ci tədris ilində keçiriləcək fakültə konfransları müzakirə edilən məsələlər sırasında olub.

Tədbirdə çıxış edən prorektor, professor M.Sultanova vurğulayıb ki, tanınmış, məşhur alimlər vaxtilə TEC-in fəal üzvləri olub və onlar ilk addımlarını da məhz tələbəlik illərində atıblar. O, tələbələrin elmi fəaliyyətinin aktivləşdirilməsinin universitet qarşısında duran ən vacib vəzifələrdən biri olduğunu bildirib. Məhz bu istiqamətdə fəaliyyəti canlandırmaq üçün elmi potensialı yüksək və elmi araşdırmalara marağı olan tələbələrin cəlb edilməsində TEC-i mühüm platforma adlandırıb. Prorektor onu da əlavə edib ki, tələbələrin öz nəzəri biliklərini elmi cəhətdən əsaslandırması üçün universitetdə hər cür imkanlar var. Əgər bu istiqamətdə hər hansı problem yaranarsa, rəhbərlik yenə də öz dəstəyini əsirgəməyəcək.

Sonda tələbələr ATU-nun rektoru, professor Gəray Gəraybəyli başda olmaqla, universitetin rəhbərliyinə, o cümlədən TEC-ə dəstək göstərən dekanlıqlara və elmi rəhbərlərə, həmçinin bütün tədbir iştirakçılarına öz təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, diskussiya şəklində təşkil olunmuş tədbirdə II Müalicə-profilaktika, Əczaçılıq, Stomatologiya fakültələrinin dekanları İsrail Məhərrəmbəyli, Fərəh Mədətli və Elmira Əliyeva, Hərbi tibb fakültəsi üzrə TEC-in elmi rəhbəri Saleh Əhmədov və başqaları iştirak edirdi.

# Yeni istiqamətlərə cavabdeh şöbə

## Dosent Aygün Babayeva: Tədris prosesinin təkmilləşdirilməsi, beynəlxalq akkreditasiya və reytinqlərdə yer qazanmaq əsas fəaliyyət sahəmizdir



**İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsi Azərbaycan Tibb Universitetində 2 ildən artıqdır ki, fəaliyyət göstərir. Şöbə rektorun birbaşa tabeçiliyində fəaliyyət göstərən struktur bölmə olmaqla, universitetin təhsil, elm, əməkdaşlıq, infrastruktur üzrə keyfiyyət siyasətini, eləcə də akkreditasiya və dünya reytinqlərində yer tutmaq fəaliyyətini həyata keçirir. Şöbənin gördüyü işlərlə bağlı onun rəhbəri, dosent Aygün Babayevanın fikirlərini öyrəndik.**

Onun sözlərinə görə, şöbənin əsas məqsədi keyfiyyət menecment sisteminin düzgün işləməsini və inkişafını təmin etməklə universitetin fəaliyyətinin təkmilləşməsinə nail olmaq, universitetin tanınma və keyfiyyət siyasətini həyata keçirməkdir: "Rektor, professor Gəray Gəraybəyli təhsildə mükəmməlliyə nail olmaq üçün şöbə qarşısında qabaqcıl tədqiqatlara meyarların tətbiq olunması, təkmilləşdirmə işlərinin aparılması və eləcə də davamlı olaraq universitetin fəaliyyətini qiymətləndirmək tələblərini qoyub. Qeyd etdiyim tələbləri yerinə yetirmək üçün ATU-da ildə iki dəfə professor-müəllim heyəti, təhsilalanlar, məzunlar və işəgötürənlər arasında sorğular keçiririk. Sorğular Python kimi proqramlar ilə analitik təhlil olunur.

Tələbələrimizi yüksək peşəkarlığa malik səhiyyə işçisi kimi yetişdirmək məqsədilə onları zəruri bilik, bacarıq və etik dəyərlərlə təmin edən hərtərəfli tibbi təhsil proqramı həyata keçiririk. Buna görə "Sillabusların tərtib olunmasına dair təlimat" hazırlanıb. Həmin təlimata uyğun innovativ metodların tədrisə tətbiqi işi kafedralarla birgə aparılıb. Hər fənnə uyğun innovativ metod seçilib və sillabusda öz əksini tapıb. Tədris metodları olaraq tapşırıq-əsaslı öyrənmə, klinik təqdimatla öyrənmə, problem-əsaslı öyrənmə, hadisə-əsaslı öyrənməni vurğulaya bilərəm".

Dosent A.Babayeva qiymətləndirmədən və davamlı təkmilləşdirmə sahəsində görülən işlərdən də danışıb. Bildirib ki, qiymətləndirmə formativ (semestr ərzində) və summativ (semestrin sonunda) şəkildə aparılır: "Nəzəri, təməl və laborator fənlərdə formativ olaraq sərbəst iş Essay (tezis) və ya layihə-əsaslı formalaşdırılıb. Sərbəst işlərin qiymətləndirilməsi hazırlanmış meyarlar (matrix) üzrə aparılır və hər birinə olan tələblər sillabuslarda öz əksini tapır. Klinik kafedralar isə formativ qiymətləndirməni yalnız bacarığın qiymətləndirilməsi ilə aparırlar. Kafedraların seçimindən asılı olaraq, klinik fənlərdə bacarıq "Mini klinik qiymətləndirmə tapşırığı", "Prosedur bacarıqlarının birbaşa müşahidəsi" və ya "Situasiya, klinik hala əsaslanan müzakirə qiymətləndirilməsi" ilə müəyyənləşdirilir".

Şöbə davamlı təkmilləşdirmə sahəsində də işlər görür. Buna misal olaraq, "Effektiv strateji planlaşdırma və proqram qiymətləndirilməsi", "Effektiv kurrikulumun, sillabusun yaradılması" təlimlərini göstərmək olar: "Qeyd edim ki, "Effektiv strateji planlaşdırma və proqram qiymətləndirilməsi" üzrə təlim struktur bölmə rəhbərləri və onların əməkdaşları üçün keçirilib. "Effektiv kurrikulumun, sillabusun yaradılması" üzrə təlim isə tədris prosesində iştirak edən heyət üçün tətbiq edilib. Hər bir təlim 10 həftə çəkib.

Həmçinin şöbənin təşkilatçılığı ilə "İnstitusional akkreditasiya meyarları" üzrə təlim də keçirilib. Təlimdə akkreditasiya meyarlarının metodologiyası ilə tanışlıq baş tutub. 30-dan çox əməkdaşımız bu təlimlərdə iştirak edib və sertifikatlarla təltif olunub.

Bundan başqa, ATU olaraq, "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı Tədbirlər Planı" çərçivəsində BMT-nin İnkişaf Proqramı və Avropa Komissiyasının birgə təşəbbüsü olan Kapuçinski İnkişaf Mühazirələri (Kaptalks) ilə "Mürəkkəb dünyada necə yaşamalı: planetar sağlamlıq çıxış yolu kimi" mövzusunda seminar təşkil etdik. Tədbirdə Sanvey Universitetinin Planetar Sağlamlıq Mərkəzinin icraçı direktoru, professor Cəmilə Mahmudun mühazirəsi dinlənildi. Seminarda səhiyyə və təhsil sahəsinin mütəxəssisləri, ekspertlər, alimlər, tələbələr, hakimiyyət orqanlarının nümayəndələri, diplomatlar iştirak edirdilər".

A.Babayeva bildirib ki, şöbənin funksiyalarından biri də yerli və beynəlxalq akkreditasiyalara hazırlıq və müvafiq prosesin ATU-da keçirilməsini təmin etməkdir. Keçən tədris ili ərzində universitetimiz institusional akkreditasiyadan və beynəlxalq akkreditasiyanın monitorinqindən uğurla keçib.

"Bildiyiniz kimi, professor Gəray Gəraybəylinin rəhbərliyi ilə 2016-cı ildən bəri ATU bir çox nailiyyətlər qazanıb, uğurlara imza atıb və yeni strateji planda nəzərdə tutulan yol üzrə transformasiyaya başlayıb. Bu plan artıq üç təhsil proqramının (Tibb, Stomatologiya və Əczaçılıq) beynəlxalq akkreditasiyadan keçməsi və Azərbaycan Tibb Universiteti tarixində ilk dəfə olaraq nüfuzlu "Times Higher Education Impact Ranking"də iştirak etmək imkanı ilə nəticələnib. Bu il universitetimiz həmin reytinq cədvəlində sağlamlıq üzrə göstəriciləri müəyyənləşdirən SDG 3 – "Good health and wellbeing" kateqoriyasında ölkə birincisi olub. Burada ATU-nun ölkəmizdə səhiyyənin və tibb elminin inkişafına, təhsilin bütün pillələrində yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə, sağlam həyat tərzinin təşviqinə, əhaliyə pulsuz tibbi yardım üzrə xeyriyyə aksiyalarının keçirilməsinə və bununla da əhalinin rifah halının yüksəldilməsinə verdiyi töhfələr əsas götürülüb" – deyə şöbə müdiri fikirlərini yekunlaşdırıb.

**Qabil ABDULLAYEV**

# Bioloji kimya kafedrasında Zəfər Günü qeyd olunub

**Bioloji kimya kafedrasında Zəfər Günü ilə əlaqədar tədbir keçirilib. Tədbiri kafedra müdiri, professor Gülnarə Əzizova açaraq, xalqımızın 30 ilə yaxın bu günü - qələbə gününü həsrətlə gözlədiyini, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunduğunu bildirib.**

Belə bir möhtəşəm günü bizə yaşatdığı üçün Ali Baş Komandan, Prezident İlham Əliyevə, Müzəffər Ordumuza təşəkkürünü çatdıran G.Əzizova, bu tədbirin kafedranın Həmkarlar İttifaqı Komitəsinin sədri, baş müəllim Ellada Hüseynovanın təşəbbüsü ilə baş tutduğunu qeyd edib.

Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra videoçarx nümayiş etdirilib.

Ellada Hüseynova öz çıxışında "Xarı bülbül qoxulu Zəfər bayramı"ndan, Xarı bülbülün Vətən müharibəsi nəticəsində qələbə rəmzinə çevrilməsindən, adıçəkilən gülün Şuşadan başqa ayrı bir məkanda bitməməsindən və onun vətənə sadiqlik simvolu olmasından söhbət açıb. O, Bioloji kimya kafedrasının tarixi günlərimizi həmişə diqqət mərkəzində saxladığını deyib.



Kafedranın dosenti Mahirə Əmirova dövlətimizin qazilərə və şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan danışıb. Bu zümrədən olanlara dövlətimizdən başqa, hər birimizin qayğı göstərməyimizin zəruriliyini vurğulayıb.

Baş müəllim Firəngiz Quliyeva ATU rəhbərliyinin hər zaman qazilərə və şəhid ailələrinə həssaslıqla yanaşmasından, universitetin tələbə və müəllimlərinin hər zaman gözəl təşəbbüslərə həvəslə qoşulmasından, onlar tərəfindən toplanmış kitabların Qarabağda yerləşən hərbi hissələrdəki "Əsgər kitabxanası"na hədiyyə edilməsindən, qazilərə və şəhid ailələrinə hər zaman kafedra əməkdaşlarının diqqət və qayğı göstərməsindən söhbət açıb.

Sonra magistr Əfsanə Ağayeva "Xromoproteinlərə müasir baxış" araşdırma mövzusunda çıxış edib. Məruzə iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Tədbirin sonunda şəhidlərin ruhuna dualar oxunub və onların xatirəsinə ehsan süfrəsi təşkil edilib.

# Rezidentlərin yekun attestasiyası imtahanlarının II mərhələsi baş tutub

**Azərbaycan Tibb Universitetində rezidentlərin dövri və yekun attestasiyası imtahanlarının II mərhələsi keçirilib. İmtahan ATU-nun tədris cərrahiyyə, terapevtik, stomatoloji və onkoloji klinikalarında və tədris binalarında baş tutub.**

Rezidentura və magistratura şöbəsindən bildirilib ki, artıq dövrü attestasiyanın İmtahan Mərkəzində keçirilən birinci mərhələsi başa çatıb. Belə ki, 40-a yaxın ixtisas üzrə imtahanı uğurla verən buraxılış rezidentləri II mərhələyə buraxılıb.

Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarında yekun attestasiya imtahanlarının gedişini izləyərkən müşahidələrimiz bizdə xoş təəssürat yaratdı. Hərbi tibb fakültəsinin ümumi cərrahiyyə ixtisası üzrə V kurs rezidenti, tibb xidməti kapitanı Araz Əliyev, digər ixtisaslar üzrə rezidentlərdən Ayşən Bayramova, Nərmin Ələkbərova, Cavid İsmayılov və başqaları yekun attestasiyasının I mərhələsində maksimum bal topladıqlarını, II mərhələdən də müvəffəqiyyətlə keçəcəklərinə əminliklərini söylədilər. Anesteziologiya və reanimatologiya ixtisası üzrə komissiyanın üzvləri də rezidentlərin hazırlığından razı idilər. Professor İsfəndiyar İsmayılov builki rezidentlərin praktiki bacarıqlarının qənaətbəxş olduğunu, komissiya tərəfindən müsbət qiymətləndirildiyini bildirdi.

I Cərrahi xəstəliklər kafedrasının rezidentlər üzrə rəhbəri, t.e.d. Elman Əzimov yekun attestasiyasının bu mərhələsində rezidentlərin plevra boşluğunun punksiyası, laparoskopik, ateromanın xaric edilməsi, bağırsaq üzərində anastomozun qoyulması, klinik halın araşdırılması və başqa bu kimi bacarıqlarının yoxlanıldığını dedi.



İmtahanın II mərhələsinin təşkilində klinika rəhbərləri də yaxından iştirak edərək, kafedra müdirləri ilə birlikdə müvafiq ixtisaslar üzrə attestasiyaların keçirilməsi üçün auditoriyaların təşkilinə, onların lazım olan əyani vəsaitlərlə təminatına köməklik göstəriblər.

Mövcud qanunvericiliyə əsasən, birinci mərhələdə test imtahanı verən rezidentlər 50 sualdan 40-nı düzgün cavablandırmalıdırlar ki, ikinci mərhələyə buraxılsınlar. Bu mərhələdə isə minimum bal 30-dur. Beləliklə, ümumilikdə 70 bal toplayan rezident buraxılış yekun attestasiyasından keçmiş hesab olunur.

Kardiologiya, pediatriya, ginekologiya, endokrinologiya, anesteziologiya və reanimatologiya, urologiya, stomatologiya və başqa ixtisaslar üzrə rezidentlərin klinik bacarıqlarının qiymətləndirilməsi mərhələsi səhiyyə nazirinin əvvəlcədən təsdiqlədiyi komissiyanın nəzarəti altında aparılır.

Onu da xatırladaq ki, əsas buraxılış yekun attestasiyasından keçməyən rezidentlərin növbəti dəfə təkrar imtahana gəlmək hüququ saxlanılır.

**Oktyabrın 28-29-da Şuşa şəhərində "Azərbaycan Sağlamlıq Turizmi Konfransı: inkişaf imkanları" mövzusunda beynəlxalq tədbir keçirilib. 200-dən çox iştirakçısı olan konfransa Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, İsveçrə, Çex Respublikası, Malayziya, Qazaxıstandan olan mütəxəssislər də qatılıblar.**



# Əməkdaşlarımız Şuşada sağlamlıq turizmi konfransında iştirak ediblər

Açılış nitqi ilə çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev sağlamlıq turizmi üzrə zəngin və geniş potensiala malik Azərbaycanda bu sahənin inkişafı ilə bağlı son illər bir çox istiqamətlər üzrə işlər görüldüyünü qeyd edib və qarşıda duran hədəflər barəsində danışıb. Qeyd edilib ki, sağlamlıq və tibbi turizm üzrə Naftalan neftinin turizm məhsulu kimi daha da inkişaf etdirilməsi, resursun Avropa və yeni bazarlarda təşviq edilməsi əsas hədəflər sırasındadır.

Tədbirdə Azərbaycan Tibb Universitetini Elmi tədqiqatların idarə olunması departamentinin Elmimetrik araşdırma və elmi əməkdaşlıq şöbəsinin müdiri, professor Fatimə Seyidbəyova və İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Günel Aslanova təmsil ediblər. Əməkdaşlarımız konfrans çərçivəsində tibbi turizm üzrə işçi qrupun işində iştirak edib, həmçinin sağlamlıq və tibbi turizmlə bağlı fərqli mövzuların müzakirələrinə qatılıblar.

Tədbir sağlamlıq və tibbi turizm sektorunda mövcud qabaqcıl təcrübələrin araşdırılması və Azərbaycan üçün inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi məqsədi daşıyırdı.

# Azərbaycanlı həkimin elmi-tədqiqat işi Fransada birinci yerə layiq görülüb

**Oktyabrın 27-30-da Fransanın Marsel şəhərində 33-cü ESGE konqresi keçirilib. Bu beynəlxalq nüfuzlu tədbirdə Azərbaycan nümayəndə heyəti də iştirak edib.**




Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkimi, tibb üzrə fəlsəfə doktoru, tanınmış ginekoloq Nərgiz Şəmsəddinskaya tədbirdə ən yaxşı elmi-tədqiqat işinə görə birinci yerə layiq görülüb. Onun "The effect of transobturator tape surgery on female sexual function at women with pelvis organs prolapse" ("Çanaq orqanları prolapsı olan qadınlarda transobturator lent əməliyyatının qadın cinsi funksiyasına təsiri") mövzusunda çıxışını avropalı mütəxəssislər böyük maraqla qarşılayıb.

Nərgiz Şəmsəddinskaya təqdimata aid çoxsaylı sualları da cavablandırıb. Mükafat qalibə professor Fateh Şendağ tərəfindən təqdim olunub.

# "Yüksək kvartilli jurnallarda nəşr üçün məqalələri necə hazırlayaq?"

## Elmi Tədqiqatların İdarəolunması Departamentinin təşkilatçılığı ilə növbəti seminar keçirilib

**Noyabrın 5-də ATU-nun Tədris Terapevtik Klinikasında Elmi Tədqiqatların İdarəolunması Departamentinin təşkilatçılığı ilə "Yüksək kvartilli jurnallarda nəşr üçün məqalələri necə hazırlayaq?" mövzusunda seminar keçirilib.**





Tədbiri açan Əqli mülkiyyətin inkişafı, qrant, patent və elmi ekspertiza şöbəsinin müdiri Aygün Kazımlı bildirib ki, departament yarandığı vaxtdan indiyədək müxtəlif istiqamətlərdə silsilə tədbirlər keçirib və bu da onlardan biridir. O, məruzəçi haqqında qısa məlumat verib. Qeyd edib ki, ixtisasca biotexnoloq olan Sona Hacıyeva İtaliyanın Boloniya Universitetinin doktorantı və UNEC-in Əziz Sancar adına Qida təhlükəsizliyi laboratoriyasının tədqiqatçısıdır.

Sonra çıxış edən məruzəçi bildirib ki, müasir dövrdə bir ölkənin elm ictimaiyyətinin fəaliyyətinin dünya arenasında tanıdılması nöqteyi-nəzərindən yüksək kvartilli jurnallarda elmi məqalələrin dərc olunması vacibdir: "İngilis dilinin qlobal dil olduğunu nəzərə alsaq, elmi işlərin məhz bu dildə nüfuzlu jurnallarda nəşr olunması həmin fəaliyyətin xaricdə nümayiş etdirilməsi üçün şərtdir. Tədqiqat mövzusu standart olmamalı, elmdəki boşluqlara toxunmalı, az öyrənilmiş və ya tədqiq olunmayan sahələr üzrə yeni araşdırmalar aparmalıdır. Məqsədəuyğun və etibarlı nəticələr əldə etmək üçün metodologiyanın dəqiq və uyğun seçilməsi vacibdir, metodlar aydın təsvir edilməlidir. Məqalə jurnalın tədqiqat sahəsi və məqsədləri ilə uyğun gəlməlidir. Kvartilli jurnallarda nəşr olunmuş məqalələrin strukturunu öyrənmək və həmin məqalələrin təhlilindən istifadə etmək yazı tərzini və tədqiqatın təqdimatını optimallaşdırır".

S.Hacıyeva jurnallarda məqalənin qəbul prosesi və şərtlər barədə də məlumat verib: "Yüksək kvartilli jurnallarda məqalə nəşri, xüsusən də ödənişsiz və ya APC (Article Processing Charge) azadolmaları ilə nəşr etmək üçün APC Waiver Siyasəti və Azadolma Meyarları yüksək səviyyəli jurnal redaksiyaları adətən məqalənin orijinallığına, təklif etdiyi yeni nəticələrə və mövzunun aktuallığına diqqət edirlər. Tədqiqat kifayət qədər yenilikçi və orijinal olduqda, əhəmiyyətli bir mövzuya toxunduqda, APC üzrə azadolma ehtimalı artır. Bəzi jurnallar (məsələn, Elsevier və Springer) inkişaf etməkdə olan ölkələrin tədqiqatçılarına və ya maliyyə dəstəyi olmayan tədqiqatçılara ödənişsiz nəşr imkanları yaradır. Tədqiqatın ümumdünya əhəmiyyəti, mövzunun beynəlxalq dəyəri və çoxşaxəli tətbiq imkanları da ödənişdən azadolma səbəblərindən biridir".

Məruzəçi əlavə edib ki, məqalənin qəbul şansını artırmaq üçün tədqiqatın orijinallığı da əhəmiyyət kəsb edir: "Daha öncə işlənilməmiş, yaxud barəsində məhdud bilgilər olan mövzu üzrə araşdırma aparıb məqalə yazmaq həmin məqalənin qəbul şansını yüksəldir. Məqalə sadə, anlaşıqlı üslubda yazılmalıdır. Çünki akademik terminlərlə zəngin, mürəkkəb quruluşa malik cümlələrdən tez-tez istifadə etmək məqalənin həm qəbulunu və eləcə də oxucular tərəfindən oxunma ehtimalını azaldır".

Təlim xarakteri daşıyan və maraqla qarşılanan seminarda Elmimetrik araşdırma və beynəlxalq elmi əməkdaşlıq şöbəsinin müdiri, professor Fatimə Seyidbəyova, akademik heyət, müəllim və doktorantlar, tələbələr iştirak edirdilər.

# Əməkdaşlarımız Moskvada beynəlxalq forumda çıxış edib




**Oktyabrın 24-dən 26-dək Moskvada Rusiyanın və bir çox ölkələrin aparıcı mütəxəssislərini bir araya gətirən Rusiya Uşaq Cərrahlarının Beynəlxalq X Forumu keçirilib. Forum iştirakçıları uşaq cərrahiyyəsi sahəsində təcrübə mübadiləsi aparıb və mövcud tendensiyaları, yenilikləri müzakirə ediblər.**

Azərbaycan nümayəndə heyətini ATU-nun Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxov və assistent Namiq Xəlilov təmsil edib və bölmələr üzrə moderator olublar. R.Poluxov “Torokal cərrahiyyə - ümümi suallar”, N.Xəlilov isə “Uşaq yaşları andrologiyasının seçilmiş sualları" bölməsinə həmsədrlik edib.

Tədbiri professor Razumovski açıb. Professor R.Poluxov Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının, assistent N.Xəlilov isə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin foruma ünvanlanmış təbrik məktublarını oxuyub.

Forumda ilk dəfə olaraq uşaq cərrahiyyəsinin bu mürəkkəb sahəsinin dərindən və hərtərəfli müzakirə olunduğu “Döş qəfəsi qüsurları olan uşaqların müalicəsi” adlı pre-forum keçirilib. Sessiyada döş qəfəsinin malformasiyalarının diaqnostikası və konservativ müalicəsi, sinə deformasiyalarının müalicəsinin digər aspektləri, təcrübə mübadiləsi və klinik müşahidələr müzakirə olunub. “Mürəkkəb deformasiyaların cərrahi müalicəsi” adlı görüşdə Rusiyanın aparıcı mütəxəssisləri cərrahi müalicə təcrübələrini bölüşüb, döş qəfəsinin ekskavatum deformasiyasının, eləcə də nadir döş qəfəsi qüsurlarının müalicəsinin müxtəlif üsullarını təqdim ediblər.

Azərbaycan nümayəndə heyəti müxtəlif dəyirmi masalarda, ustad dərsləri, cərrahi simpoziumlar, elmi şuranın iclasları və eləcə də gənc alimlərin müsabiqəsində iştirak edib.

Onlar neonatal cərrahiyyədə yüksək texnoloji üsullardan danışıb, son bir neçə ildə əldə olunmuş təcrübəni həmkarları ilə bölüşüblər. Ramiz Poluxov bağırsaq transplantasiyasından istifadə edən uşaqlarda qida borusunun plastik cərrahiyyəsi təcrübəsinin ümumiləşdirilmiş və daha etibarlı, uşaqlar üçün az travmatik və daha az əlilliyə səbəb olmasının çoxsaylı misallarla sübut edildiyini söyləyib. Bildirib ki, bəzi hallarda hər şeyin əllə, gözlə “göründüyü” açıq əməliyyat üsulu daha etibarlı və təsirli olur: “Hesab edirik ki, uşaqlarda qarın boşluğu və döş qəfəsi ilə bağlı bəzi əməliyyatların ən yaxşı forması açıq şəkildə aparılandır”. Namiq Xəlilov isə çıxışında belə yüksək səviyyəli forumlarda iştirak etməyin faydalı və maraqlı olduğunu, uşaq cərrahiyyəsinin yalnız Rusiyada deyil, həm də MDB ölkələrində sürətlə inkişaf etdiyini söyləyib. O, son forumdan ötən bir il ərzində bu sahədə çox şeyin dəyişdiyini diqqətə çatdırıb.

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində, “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ATU-nun İctimai səhiyyə fakültəsinin təşkilatçılığı ilə tədbir keçirilib.**

# Tələbələrimiz iqlim dəyişmələri ilə bağlı layihə hazırlayıb

Tədbiri giriş sözü ilə Uşaq və yeniyetmələrin sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva açıb. O, ölkəmizdə keçiriləcək COP29-un əhəmiyyətini qeyd edərək, İctimai səhiyyə fakültəsi tələbələrinin iqlim dəyişikliyinin ətraf mühitə və sağlamlığa təsiri ilə bağlı apardığı araşdırmanın nəticələri barədə təqdimat olacağını bildirib.

Elmi işlər üzrə prorektor, professor Məlahət Sultanova öz çıxışında iqlim dəyişikliklərinin bütün dünyada, o cümlədən də Azərbaycanda ətraf mühitə və insan orqanizminə göstərdiyi təsirlərə diqqət çəkib. Bu cür həyati əhəmiyyətli mövzuya həsr olunmuş dünyanın ən ali tədbirinin ölkəmizdə keçirilməsinin qürurverici olduğunu vurğulayıb. O, tələbələrin hazırladığı layihənin əhəmiyyətini qeyd edib.

Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov noyabrın xalqımız üçün bayramlar ayı olduğunu, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı möhtəşəm qələbənin ildönümünü – Zəfər Gününü xalqımızın yenə təntənəli şəkildə qeyd edəcəyini nəzərə çatdırıb: “Bunun ardınca Dövlət Bayrağı Gününü bayram edəcəyik. Daha sonra isə ölkəmiz üçün tarixi əhəmiyyətli COP29 keçiriləcək”.

Prorektor M.Səfərov və ondan sonra çıxış edən Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov COP29-un dünya üçün önəmindən bəhs edib, dövlətimizin bu mötəbər tədbiri də həmişəki kimi, uğurla keçirəcəyinə əminliklərini bildiriblər. Onlar tələbələrin hazırladığı layihəni təqdirəlayiq qiymətləndiriblər.

Sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin hazırladığı “fleşmob COP29” videoçarxı nümayiş olunub.



İctimai səhiyyə fakültəsinin 5-ci kurs tələbəsi Nailə Əhmədova adıçəkilən fakültənin tələbələrinin hazırladığı “İqlim təsirləri – gələcək həkimlərin gözü ilə” layihəsini diqqətə çatdırıb. Bildirib ki, layihə çərçivəsində iqlim dəyişikliyinin sağlamlığa təsiri barədə tələbələr tərəfindən sorğular aparılıb. O öz məruzəsində iqlim dəyişikliklərinin təbiətdə və insan həyatında hansı fəsadlara və xəstəliklərə səbəb olmasından geniş bəhs edib.

Məruzə tədbirdə iştirak edən müəllimlər və tələbələr tərəfindən müsbət qiymətləndirilib. Fakültənin dekanı, dosent Qalina Qəniyeva layihənin iştirakçılarına - Nailə Əhmədova, Familə Babazadə, Cavid Əhmədov, Ruslan Dursunov, Fateh Əsədbəyli, Cəmilə Məmmədzadə, Leyla Cavadova və Səmayə Sadıxovaya sertifikatlar təqdim edib, videoçarxda yer alan tələbələr isə mükafatlandırılıb. Tədbirin sonunda təşkil olunan interaktiv oyunun qalibləri də diqqətdən kənarda qalmayıb.

# “İqlim Dəyişikliyi Zirvəsi”nin bir paneli tələbəmizin moderatorluğu ilə baş tutub

**Noyabrın 1-də Azərbaycan Texniki Universitetində Bahçeşehir Universiteti, Cifal İstanbul, UNITAR, Bilimsenol və Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə “İqlim Dəyişikliyi Zirvəsi” adlı tədbir keçirilib.**

Mötəbər qonaqların iştirak etdiyi tədbirdə ATU-nun II Müalicə-profilaktika fakültəsinin tələbəsi Fatma Nur Yılmazın moderatorluğu ilə “İqlim Dəyişikliyi Zirvəsi”nin Sağlamlıq paneli də təşkil edilib. Paneldə ATU-nun II Müalicə-profilaktika fakültəsinin



dekanı, dosent İsrail Məhərrəmbəyli, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri, pediatr Qoşqar İsmayılov və Türkiyə Cümhuriyyətinin Səhiyyə Elmləri Universitetinin müəllimi, pediatr Nazlı Ercan çıxış edərək, iqlim dəyişikliyinin sağlamlığa təsirlərindən danışıblar. Onların təqdimatları ətrafında geniş müzakirələr aparılıb.

Tədbirin sonunda təşkilatçılar bu əhatəli proqramın hazırlanmasına cavabdeh olan tələbələrimizə, tərəfdaşlara və panel nümayəndələrinə təşəkkürlərini bildiriblər.

Eyni zamanda iştirakçı müəllimlərə və tələbələrə sertifikatlar verilib, həmçinin TEMA VAKFI-nda çıxış edən hər bir müəllimin adından yaşıllıq rəmzi olan 3 ədəd fidan bağışlanıb.

# Kəskin pankreatitlə bağlı elmi araşdırma aparılıb



Universitetimizin əməkdaşları - professor Şakir İbrahimli, assistent Ziyalı Rzayev və doktorant Hilalə Abbasova yerli və beynəlxalq səhiyyə üçün aktual mövzulardan biri üzrə növbəti elmi-tədqiqat işinin eksperimental hissəsini müvəffəqiyyətlə yekunlaşdırıblar. ATU-nun III Cərrahi xəstəliklər kafedrasının professoru Ş.İbrahimli və Elmi Araşdırmalar Mərkəzinin (EAM) direktoru Orxan İsayevin rəhbərliyi ilə kafedranın doktorantı Hilalə Abbasovanın apardığı elmi araşdırma işi “Kəskin pankreatitin diaqnostikası və kompleks mualicəsinin optimallaşdırılması” adlanır.

Elmi tədqiqat işinin eksperimental hissəsi EAM-da 48 dovşan üzərində icra olunub. Eksperiment zamanı iki qrup üzrə tədqiqat aparılıb. Nəzarət qrupuna 12 dovşan, əsas qrupa isə 36 dovşan daxil edilib. Məqsəd öd-xloroform qarışığını (hər 10 qram çəkiyə 0,3-0,5 ml olmaqla) mədəaltı vəz toxumasına yeritməklə, kəskin pankreatit modelini yaradaraq qanın koaquloqrammasında və mədəaltı vəzi toxumasının mikrohemosirkulyator və mikrolimfosirkulyator sistemində baş verən patomorfoloji dəyişiklikləri eksperimentdən 24, 48 və 72 saat sonra öyrənməkdən ibarət olub.

Nəticədə kəskin pankreatit modeli yaradıldıqdan 24 saat sonra pankreasda nekrozların baş verməsi, 48, 72 saat sonra isə prosesin daha da dərinləşdiyi müşahidə olunub. Normada və eksperimentin 24, 48 və 72-ci saatlarında qanın koaquloqrammasında və pankreasda baş verən patomorfoloji dəyişikliklər qanın və pankreasdan götürülən 3-4 tikənin patomorfoloji müayinəsinin nəticəsinə əsasən qiymətləndirilib.

Qeyd edək ki, indiyədək Tədris Cərrahiyyə Klinikasında kəskin pankreatiti olan 4 xəstənin müalicəsinə ilk dəfə endolimfatik müalicə də daxil edilib.

# “Xarici tələbələrin səsi” klubu COP29-la bağlı tədbir təşkil edib



Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi ilə "Xarici tələbələrin səsi" (VOİS) klubu COP29 mövzusuna həsr olunmuş art-seminar və tədbir keçirib.

Bu tədbir iqlim dəyişikliyi ilə mübarizə haqqında məlumatlılığın artırılmasına həsr olunub, həmçinin tələbələri, müəllimləri və işçiləri bir araya gətirib.

Tədbirdə 17 istedadlı iştirakçı iqlim problemləri və ətraf mühitə düzgün münasibətin vacibliyini nümayiş etdirən rəsmlər təqdim edib. Sərginin nəticələrə əsasən, I yerə Kristina Babi, II yerə Lila Helal, III yerə isə Lamiaa Guamar layiq görülüb.

Tədbirdə, həmçinin gənclərin iqlimin qorunmasında rolu ilə bağlı maraqlı müzakirələr keçirilib, COP29 mövzusunda təqdimatlar baş tutub.

**"Koxlear implant mürəkkəb tibbi elektron qurğudur. O, anadangəlmə və sonradan qazanılmış eşitmə qüsuru olan şəxslərə tətbiq edilir. İlkin olaraq eşitmə qüsurlu şəxslər müayinədən keçirilir və onların koxlear implantasiya əməliyyatına uyğunluğu müəyyən edilir. Bundan sonra isə cərrahi əməliyyat və reabilitasiya dövrü başlayır". Bu fikirləri koxlear implant əməliyyatları ilə bağlı "Təbib" qəzetinin suallarını cavablandıran ATU-nun Qulaq, burun və boğaz xəstəlikləri kafedrasının dosenti Cabbar Cəlilov söyləyib.**

# Eşitmənin bərpasında koxlear implantın rolu

## Dosent Cabbar Cəlilov deyir ki, uşaqlarda bu əməliyyat vaxtında icra olunduqda, nitqin inkişafı normal səviyyədə gedir



Həkim bildirib ki, eşitmə qüsuru ilə doğulmuş uşaqlar üzərində son illər koxlear implant əməliyyatları aparılır. Koxlear implantasiya qulağın ilbiz hissədində olan eşitmə sinirinin liflərinin elektrik impulslarla stimullaşdırılmasından ibarətdir: "Əməliyyat zamanı daxili qulağa xüsusi elektrodları olan cihaz – koxlear implant yerləşdirilərək daxili qulaq protezləşdirilir. Qulağın xarici hissəsinə isə səslərin elektrik impulslara çevrilməsini təmin edən mikroprosessor və ötürücü qoşulur. Eşitmə siniri liflərinin stimullaşdırılması baş beyin strukturlarına səsləri tanımağa imkan verir. Eşitmə və danışma qüsurlu şəxslər koxlear implantansiya nəticəsində normal həyat tərzinə qayıda bilirlər. Erkən yaşlarda aparılan əməliyyatlar daha səmərəli nəticələr verir və bu şəxslərdə əlilliyin yaranması səbəbi aradan qaldırılır". Sözünə davam edən C.Cəlilov dünya əhalisinin 10-12%-nin ağır eşitmədən əziyyət çəkdiyini, belə insanların Azərbaycanda da çox olduğunu bildirib: "Bu rəqəmin müəyyən bir hissəsi də uşaqların payına düşür. Anadangəlmə ağır eşitmənin müxtəlif səbəbləri və faktorları var: qohum nikahları, hamilə qadının infeksiya keçirməsi və yaxud hamiləlik dövründə hansısa xəstəliyinin olması, qulaq sinirinə zədələyici təsir göstərən antibiotik preparatlarının vurulması, doğuş zamanı yenidoğulmuşun aldığı travma və s. Burada əsas məsələ diaqnozun tez və düzgün qoyulmasıdır. Çünki biz də onun qarşısını daha tez ala bilirik".

Mütəxəssis qeyd edib ki, bu əməliyyat anadangəlmə ağır dərəcədə eşitmə itkisi olan uşaqlara tövsiyə olunur: "Bunun üçün bütün yenidoğulmuşlara otoakustik emisyon testinin tətbiqi vacibdir. Uşaqlarda nitqin formalaşması 2 yaşa qədər baş verir ki, məhz buna görə də koxlear implantasiya həmin dövrdə həyata keçirilməlidir. İdeal yaş 1-2 yaş aralığıdır. 2 yaşdan yuxarı aparılan koxlear implantasiya əməliyyatının uğur faizi hər yaşa görə daha aşağı olur. Nəzərinizə çatdırım ki, koxlear implantasiya eşitmə qüsurlu şəxslərin tam sosial adaptasiyasına yönəlmiş bir proqramdır".

Müasir dövrdə koxlear implantasiyanın ağır dərəcəli eşitmə və karlıqda yeganə müalicə üsulu olduğunu vurğulayan həkim bildirib ki, buna baxmayaraq, müvafiq əməliyyat aparılmış uşaqlarda hələ ki danışıq qabiliyyətinin inkişafında müəyyən problemlər yaşanmaqdadır: "İlk öncə nəzərə alınmalıdır ki, uşaqlarda koxlear implantasiyanın nəticələri əməliyyatın hansı yaşda aparılmasından çox asılıdır. Bundan başqa, əməliyyata namizədlərin seçimi də mübahisəlidir və nəticədə koxlear implantasiya aparılmış uşaqların çoxunda dil və danışıq səviyyəsi öz həmyaşıdlarından geri qalır. Müşahidələr göstərir ki, koxlear implantasiya üçün seçim kriteriyalarının təkmilləşdirilməsi tələb olunur. Ümumiyyətlə isə, uşaqlarda istənilən yaşda aparılan koxlear implantasiya perspektivli sayıla bilər. Əlbəttə, burada əsas şərt əməliyyata namizədin əvvəlcədən surdopedaqoqla işləmə səriştəsinin olması və əməliyyatdan sonra lazım olan tam kompleks reabilitasiya tədbirləri ilə təmin edilməsidir. Məsələn, eşitmə-danışıq reabilitasiya proqramı, sərbəst səs müstəvisində tonal astana audiometriyası və s."

Uşaqlarında gecikmiş eşitmə problemi ortaya çıxmasın deyə, C.Cəlilov valideynlərə onları vaxtında müayinədən keçirməyi məsləhət görüb: "Hər hansı problem hiss edən kimi, mütləq həkimə müraciət etsinlər. Uşaqlarda koxlear implantasiya erkən yaş dövründə icra olunduqda, nitqin inkişafı yaşıdlarındakı səviyyədə olur və bu onları "eşitmə qüsurlu uşaq" statusundan qurtarır".

**M.ƏLƏKBƏRLİ**

**Oktyabrın 29-da Əlcəzairin Mostaganem, Abdelhamid İbn-Badis Universitetinin Təbiət və həyat elmləri fakültəsi, Biologiya kafedrası, Farmakoqnoziya və Api-fitoterapiya laboratoriyasının müdiri, professor Noureddine Djebli Azərbaycan Tibb Universitetinin Əczaçılıq fakültəsində, həmçinin Farmakoqnoziya və Əczaçılıq toksikologiyası və kimya kafedralarında akademik fəaliyyət göstərib.**



# Əlcəzairli professor ATU-da akademik fəaliyyət göstərib

Onun öz elmi yaradıcılığı, elmi istiqaməti haqqında oxuduğu mühazirələr, keçirdiyi seminarlar Əczaçılıq fakültəsinin əməkdaşları, magistrantlar, doktorantlar və gənc alimlər tərəfindən maraqla dinlənilib. Elə onun səfərinin əsas məqsədini də tədqiqat təcrübəsi və mübadiləsi, elmi müzakirələr təşkil edib. Professor Noureddine Djebli səfər çərçivəsində ATU-nun Farmakologiya, Bioloji kimya kafedraları, Elektron mikroskopiya laboratoriyası, Elmi Araşdırmalar Mərkəzinə də baş çəkərək kollektiv təcrübələr və tədqiqat tendensiyaları ilə tanış olub.

Səfərin sonunda əlcəzairli qonağa ATU-nun Beynəlxalq əlaqələr şöbəsi tərəfindən sertifikat təqdim edilib.

Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müdir müavini Nigar Mahmudova, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, Farmakoqnoziya kafedrasının müdiri, professor Cavanşir İsayev, Əczaçılıq toksikologiyası və kimya kafedrasının assistenti Kəmalə Bədəlova və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Aynur xanım iştirak ediblər. Görüş zamanı qonaq hər iki universitet arasında gələcək elmi əməkdaşlıq haqda da söz açıb.

**ATU-nun Sitologiya, embriologiya və histologiya kafedrasının baş müəllimi, t.ü.f.d. Aygün Əliyarbəyova Türkiyənin Sakarya bölgəsində Türk Histoloji və Embrioloji Dərnəyi tərəfindən təşkil olunmuş NICHE2024 beynəlxalq elmi konqresində iştirak edib.**




# Əməkdaşımızın elmi işi beynəlxalq konqresdə maraqla qarşılanıb

Sakarya Universitetinin nəzdindəki Turqut Ozal Mərkəzində keçirilən tədbirdə molekulyar biologiya və hüceyrə biologiyası, mikroskopik texnika, kök hüceyrə, hüceyrə müalicələri, regenerativ tibb, şiş biologiyası, biotibbi mühəndislik, sinir və neyroendokrin kimi mövzularda məruzələr dinlənilib.

Konqresin plenar iclasında dünyaca məşhur Hacettepe Universitetinin professoru dr. Emin Kansu və Ankara Universitetinin Histoloji və embrioloji bölümünün professoru dr. Alp Canın tarixi bilgilərlə zəngin və informativ məruzələri böyük maraqla qarşılanıb. Konqresə bir çox ölkələrdən histologiya və embriologiya üzrə alimlər qatılaraq, apardıqları elmi tədqiqat işlərini nümayiş etdiriblər.

Sevindirici haldır ki, əməkdaşımız konqresə 2 poster və 1 sözlü təqdimatla qatılaraq, təkcə universitetimizi deyil, həm də Azərbaycanı təmsil edib. Histoloji dərnəyin başkanı, Akdeniz Universitetinin Tibb fakültəsinin Histoloji və embrioloji kafedrasının professoru dr. Gamze Tanriöver və konqresin bölüm başkanları əməkdaşımızın tədqiqat işinə xüsusi maraq göstəriblər. Məruzə və posterlərlə təqdim olunan elmi işin nəticələri qarşılıqlı müzakirəyə çıxarılıb. Gələcəkdə bu istiqamətdə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

# Rusiyalı qonaq Əsaslı kitabxana ilə tanışlıqdan məmnun qalıb

**Azərbaycan Tibb Universitetinin beynəlxalq əlaqələri ildən-ilə genişlənir, dünyanın bir çox ölkəsini təmsil edən olan universitetlər və tibbi-elmi qurumlarla əməkdaşlıq qurulur, müqavilələr imzalanır. Bu əlaqələrin hər biri ATU-nun inkişafına böyük töhfədir.**



Qarşılıqlı əməkdaşlıq çərçivəsində bu günlərdə universitetimizin qonağı olan Rusiyanin "GEOTAR-Media" adlı nüfuzlu nəşriyyatının kommersiya işləri üzrə direktoru Viktor Andreyev ATU-nun Əsaslı kitabxanasına da baş çəkib. Kitabxananın direktoru Ziyafət Eminova və direktor müavini Gülbehişt Orucova qonağa ölkəmizin ilk ali tibb məktəbi və onun zəngin kitabxanası haqqında geniş məlumat veriblər. Qeyd edilib ki, Əsaslı kitabxananın əsas fondu tibbi ədəbiyyat və dərsliklərdən ibarətdir.

V.Andreyev virtual oxu zalı, kitab və dərslik fondları ilə tanışlıqdan məmnun qaldığını bildirib.

Görüş zamanı gələcək əməkdaşlıqla bağlı ətraflı müzakirələr aparılıb.

**Oktyabrın 18-dən 19-dək Əndican Dövlət Tibb İnstitutunda "Uşaq cərrahiyyəsi, anesteziologiya və reanimasiyanın aktual problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.**




# ATU beynəlxalq konfransda təmsil olunub

Onlayn və oflayn (hibrid) formatda baş tutan konfransın əvvəlində institutun rektoru M.Mədəzimov tədbirin əhəmiyyətindən və aktuallığından danışıb. Özbəkistanın səhiyyə naziri A.Xudoyarov və Əndican vilayətinin meri Ş.Abduraxmonovun iştirakçılara ünvanlanmış təbrikləri oxunub.

Tədbirdə ölkəmizi təmsil edən ATU-nun Uşaq cərrahiyyəsi kafedrasının müdiri, Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının (AUCA) prezidenti, professor Ramiz Poluxov və assistent Namiq Xəlilov ATU-nun rektoru, professor Gəray Gəraybəylinin və AUCA-nın təbrik məktublarını səsləndiriblər.

Plenar iclasda "Uşaqlarda öd yollarının kistoz transformasiyalarının diaqnostikası və müalicəsinə kompleks yanaşma", "Uşaq anesteziologiyasında müasir inhalyasiya anesteziyası", "Qarın boşluğunun kompression stenozu" kimi mövzularda 11 məruzə dinlənilib. Sonra konfrans "Anesteziologiya və reanimasiya, rekonstruktiv plastik cərrahiyyə, üz-çənə cərrahiyyəsi, ürək cərrahiyyəsi"; "Uroginekologiya, koloproktologiya" və "Torako-abdominal cərrahiyyə" bölmələrində öz işini davam etdirib.

Professor R.Poluxov "Uşaqlarda yoğun bağırsağın laporoskopik rezeksiyası zamanı dairəvi steplerlərin transanal istifadəsinin nəticələri" və "Qastroşizisin diaqnozu və müalicəsinin bəzi aspektləri", N.Xəlilov isə "Uşaqlarda ona-büzdüm nahiyəsi teratomlarının diaqnostikası və cərrahi müalicəsi" mövzusunda çıxış ediblər. Onlar həm də ayrı-ayrı bölmələrin moderatoru olublar.

Konfrans çərçivəsində Əndican Dövlət Tibb İnstitutu ilə ölkəmizin müvafiq ali təhsil müəssisələri arasında əməkdaşlığın gücləndirilməsi məsələlərindən danışılıb. Bundan başqa, alimlərimizin iştirakı ilə Regional Multidissiplinar Tibb Mərkəzində "Uşaqlarda qarın boşluğunun kiçik invaziv əməliyyatları" mövzusunda ustad dərsləri və praktik proseslər təşkil olunub.

Tədbirdə ABŞ, Rusiya, Azərbaycan, Cənubi Koreya, Qırğızıstan, Qazaxıstan, Belarus, Tacikistandan olan alim və mütəxəssislərlə yanaşı, institutun professor-müəllimləri, magistrantlar, klinik rezidentlər və yuxarı kurs tələbələri iştirak ediblər.

# Tələbələrimiz “IV Qələbə qaçışı”nda aktiv iştirak edib

**Noyabrın 3-də Bakıda “Qürurla irəli” şüarı altında “IV Qələbə qaçışı” xeyriyyə tədbiri təşkil edilib.**

Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən xeyriyyə tədbiri Azərbaycanın Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərin dördüncü ildönümünə həsr olunub.

Startdan öncə Dövlət Himnimiz səsləndirilib, Vətən müharibəsində canını fəda etmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

“Qələbə qaçışı”nın iştirakçıları Dənizkənarı Milli Parkda, “Yeddi gözəl” fəvvarəsinin yanından start götürüb, 10 km məsafəni qət edərək eyni məkanda finişə çatıblar. 1600-dən çox iştirakçının qeydiyyatdan keçdiyi qaçışda Azərbaycan Tibb Universitetini 30 yerli və əcnəbi tələbə təmsil edib. “Təbib” idman klubunun sədri Qələndər Aslanov, klubun atletika bölməsinin məşqçi-müəllimi Xatirə Şıxlı və məşqçi-müəllim Ələkbər Əliavsarov həmişəki kimi, tələbələrin yanında olmaqla onlara mənəvi dəstək veriblər. İştirakçılarımızın hamısı 10 km məsafəni qət edərək sertifikat və medallarla təltif olunub.

Tədbir çərçivəsində müxtəlif idman növləri üzrə nümunəvi



çıxışlar iştirakçıların marağına səbəb olub. Qaçış mərhələsi başa çatdıqdan sonra ərazidə əyləncəli konsert proqramı təşkil edilib. Tədbirin əsas məqsədi Azərbaycan xalqının həmrəyliyini bir daha nümayiş etdirmək, şəhidlərimizi ehtiramla anmaq və onların ailələrinə, o cümlədən qazilərimizə əbədi minnətdarlığımızı ifadə etmək olub.

Xatırladaq ki, xeyriyyə tədbirindən toplanan vəsait “YAŞAT” Fonduna ianə ediləcək və Azərbaycan Tibb Universitetinin də bu ianədə öz payı var.

**Tədqiqatçı tələbə**

# Elmi fəaliyyətində xeyli uğurlar əldə etmiş Səbinə Həsənzadə tanınmış kardiocərrah olmaq arzusundadır

**Azərbaycan Tibb Universitetində təkcə tədrislə kifayətlənməyərək universitetin ictimai həyatında yaxından iştirak edən və elmi araşdırmalara maraq göstərən tələbələrimiz çoxdur. Onlardan biri də II Müalicə-profilaktika fakültəsinin V kursunda təhsil alan Səbinə Həsənzadədir. O, III kursdan bu günədək Tələbə Elmi Cəmiyyətində beynəlxalq əlaqələr üzrə rəhbər vəzifəsində fəaliyyət göstərir.**

“Tibb təhsili almaq mənim ən böyük xəyallarımdan biri idi. Ailəmdə ilk həkim olmaq və məndən sonra gələn nəsillərə motivasiya olmağı qarşıma məqsəd qoydum” – deyən Səbinə Həsənzadə tələbəlik illərinin təəssüratlarını da bizimlə bölüşüb: “Tibb Universiteti mənim üçün ikinci ailədir. Universitetimizin müəllim-professor heyəti bizə xüsusi diqqət və qayğı ilə yanaşır. Təhsil aldığım illərdə anladım ki, universitet sadəcə bilik topladığımız yer deyil, o həm də bizə ömürlük dostlar və karyera yolumuzda təməl inşa edən insanlar qazandıran müqəddəs yerdir. Sevindirici haldır ki, tədris prosesi universitetimizdə hər zaman inkişaf etdirilir və ildən-ilə müasir standartlara daha da yaxınlaşır”.

Müsahibimiz onda elmi araşdırmalara həvəsin haradan və necə qaynaqlandığından da söz açıb: “II kursda təhsil aldığım dönəmdə “Dinamik anatomiya” seçim fənnindən müəllimim sayəsində elmi-tədqiqatla tanış oldum və elə ilk elmi fəaliyyətim o vaxt başladı. Öyrəndikcə və araşdırdıqca marağım daha da artdı və 4 elmi məqalə yazdım. Həmin məqalələr Tacikistan, Niderland, Rusiya, Ukrayna və Portuqaliya kimi ölkələrdən dəvət aldı. İnsan anatomiyasından olan ilk elmi tədqiqatım Tələbə Elmi Cəmiyyəti konfransında yer tutdu. Elə həmin tədqiqat ilə Tacikistanda keçirilən konqresdə universitetimizin maddi dəstəyi ilə iştirak edib, II yer diplomu və rektorumuza xüsusi təşəkkürnamə ilə geri döndüm. Sonrakı il isə Niderlandın Groningen şəhərində keçirən İSCOMS adlı mötəbər konqresdə elmi işimlə Azərbaycan Tibb Universitetini layiqincə təmsil etdim və həmin konqresin Azərbaycandakı səfiri seçildim. Ən son tədqiqat işim isə Ümumi cərrahiyyə kafedrasında professor Müşfiq Həsənovun elmi rəhbərliyi altında “Eksperimental pankreonekroz zamanı baş verən endotoksikozun patogenezində pankreas fermentlərinin rolu” idi. Bu tədqiqatıma görə Tələbə Elmi Cəmiyyətinin konfransında II yer diplomu ilə təltif edildim. Daha sonra Naxçıvanda keçirilən “Tibb Tələbələri və Gənc Tədqiqatçıların Respublika Konfransı”nda plenar sessiyada elmi tədqiqatla çıxış etdim və işim “Ən yaxşı elmi tədqiqat” nominasiyasına layiq görüldü. Bu ilin 4-8 sentyabr tarixlərində isə elmi tədqiqatımı Türkiyənin İstanbul şəhərində keçirilən “Türk Dövlətlərinin I Tibb Konqresi”ndə təqdim etdim və o, auditoriya tərəfindən böyük maraqla qarşılandı”.

Səbinənin ilk elmi məqaləsi Tibbi terminologiya və insan anatomiyası kafedrasından Ülviyyə Cəfərovanın elmi rəhbərliyi altında “Karpal tunel sindromunun morfoloji əsaslandırılması” adlı tədqiqat olub. İkinci elmi tədqiqatı Patoloji fiziologiya kafedrasından t.ü.f.d Taryel Ömərovun rəhbərliyi ilə “Səssiz epidemiya: artıq piylənmənin yaş və cins qrupuna görə əsaslandırılması” idi. Üçüncüsü isə, Farmakologiya kafedrasından professor Vəli Əsmətovun rəhbərliyi ilə “Etanolun xroniki təyini fonunda dişi ağ siçovulların qanında cinsi hormonların qatılığının dəyişilməsinə meksidolun təsirinin tədqiqi”dir.

Tədqiqatçı tələbə yuxarıda adıçəkilən və hələlik sonuncu olan elmi tədqiqat işinin tezislərini də diqqətə çatdırıb: "Məqsədimiz eksperimental pankreonekrozlarda orqanizmdə baş verən endotoksikoz zamanı pankreas profermentlərindən olan fosfolipaza - alfa2 aktivliyinin artması ilə bunun fonunda qanın tərkibindəki toksiki maddələrin səviyyəsinin dəyişikliyi arasındakı asılılığı müəyyənləşdirməkdən ibarətdir.




Biz 20 dovşan üzərində venadaxili anesteziya altında Buyanov M.N. metodu ilə kəskin pankreatit modeli yaratdıq. Həmin modeli yaratdıqdan sonra dovşanlardan modelin yaradılmasından 3, 5 və 7 sutka sonra qan nümunələri götürüb laboratoriyada müayinə etdik. Tədqiqatın nəticələri kimi, pankreas toxumasında və parapankreatik nahiyədə pankreas fermentlərindən fosfolipaza A2-nin aktivləşməsi və antioksidant fəallığının azalması ilə endotoksikozun vüsətlənməsi arasında korrelyativ asılılıq olmasını aşkar etdik”.

Gələcək hədəflərindən danışan Səbinə Həsənzadənin arzusu dünyaca tanınmış kardiocərrah olmaqdır. Bu sahədə uğur qazanmaq üçün öz üzərində daim çalışmalı olduğunun da fərqindədir: “Bilirəm ki, həkimlik peşəsi çox məsuliyyət tələb edən sahədir. Buna görə də təhsilimi xaricdə davam etdirib geri dönərək ölkəmin səhiyyə sistemində faydalı yöndə dəyişikliklər etmək istəyirəm. Təbii ki, sadəcə həkimliklə də kifayətlənməyib gələcəkdə tədqiqat sahəsində olan təcrübələrimi təkmilləşdirərək, tibb sahəsində əhəmiyyətli kəşflər etmək qarşımda dayanan əsas hədəflərdəndir”.

**Arif MƏMMƏDLİ**

# “Virus hepatitləri” adlı dərs vəsaiti işıq üzü görüb

**Yoluxucu xəstəliklər kafedrasının əməkdaşı, dosent Vüqar Cavadzadənin “Virus hepatitləri” mövzusunda hazırladığı dərs vəsaiti ATU-nun “Təbib” nəşriyyatında nəfis tərtibatla işıq üzü görüb.**

Kitabda A, B, C, D, E, F, G, TTV və SEN virus infeksiyalarının aktuallığı, etiologiyası, epidemiologiyası, patogenezi, patoloji anatomiyası, klinik gedişi, diaqnozu, diferensial diaqnozu, müasir müalicə və profilaktika prinsipləri geniş şərh edilib. Həmçinin dərs vəsaitində CDC (Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzi), EASL (Avropa Qaraciyər Xəstəlikləri Tədqiqatları Assosiasiyası) və APASL (Asiya Sakit Okean Qaraciyər Tədqiqi Assosiasiyası) kimi elmi mərkəzlərin son məlumatları yer alıb.

Dərs vəsaitinə ATU-nun Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri, professor Həqiqət Qədirova və Əziz Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Yoluxucu xəstəliklər kafedrasının müdiri, dosent Təyyar Eyvazov rəy veriblər. Kitabın redaktoru ATU-nun Yoluxucu xəstəliklər kafedrasının dosenti Mirzamin Muxtarovdur. Dövlət təhsil standartına uyğun çap edilən bu dərs vəsaiti ön sözdən və 10 başlıqdan ibarətdir.

Bu faydalı mənbədən Azərbaycan Tibb Universitetinin tələbələri, rezidentləri, müəllimləri və həmçinin praktik səhiyyə ilə məşğul




olan həkim-mütəxəssislər istifadə edə bilərlər. Dərs vəsaiti tərtib edilərkən son illərin elmi məlumatlarından və müvafiq ədəbiyyat materiallarından istifadə olunub.

Məlumat üçün onu da bildirək ki, Azərbaycan dilində ilk dəfə təqdim edilən bu dərs vəsaiti universitetin tədris proqramına uyğun olaraq ATU-nun Böyük Elmi Şurasının qərarı əsasında işıq üzü görüb.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların dosentləri:**

- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- Qidalanma və tibbi ekologiya kafedrası - 1 yer
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer
- Farmakologiya kafedrası - 1 yer
- Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 3 yer (0,75 vahid)
- Nevrologiya kafedrası - 1 yer
- III Daxili xəstəliklər kafedrası - 1 yer
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji anatomiya kafedrası - 1 yer
- İctimai sağlamlıq və səhiyyənin təşkili - 1 yer (0,5 vahid)
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- Anesteziologiya və reanimatologiya kafedrası - 1 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 2 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,75 vahid)
- Əczaçılıq toksikologiyası və kimya kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji anatomiya kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer

**Elmi Araşdırmalar Mərkəzi:**

- Patoloji proseslərin modelləşdirilməsi, eksperimental cərrahiyyə və terapiya şöbəsi (baş elmi işçi) - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

**Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə**

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

**Qeyd: ATU-nun əmək daşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

Ü N V A N I M I Z:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0018
Sayı 800